# Biz birlikdə güclüyük



***Dünya Azərbaycanlılarının V Qurultayının Şuşa şəhərində keçirilməsi təsadüfi deyil. Tarixi və əlamətdar hadisə kimi xalqımızın həyatında heç zaman unudulmayacaq bu möhtəşəm tədbir, əslində, dünyanın yaxın-uzaq guşələrinə səpələnən və qəlbləri Azərbaycanla döyünən soydaşlarımızın ən müqəddəs arzusu idi.***

Onlar Vətəndən uzaqlarda yaşasalar da, daim Qarabağın, mədəniyyət paytaxtımız Şuşanın düşmən tapdağından azad ediləcəyi günü səbrsizliklə gözləyirdilər. Hətta aralarında bu doğma yurd yerlərindən didərgin düşüb qərib ölkələrdə məskunlaşanlar da var idi. Onlar bur gün dədə-baba ocaqlarına dönəcəklərinə əminliklə inanırdılar. İndi həmin gün gəlib çatıb. Artıq bir ildən çoxdur ki, bu həsrətə son qoyulub, Qarabağ azad, bəxtəvər günlərinə qovuşub. Böyük Qayıdışa hazırlıq başlanıb.

Yeri gəlmişkən, İkinci Qarabağ müharibəsinin ağrılı-acılı, eyni zamanda, sevincli-qələbə müjdəli günlərini yaxşı xatırlayırıq. O vaxt təkcə Azərbaycanda deyil, həm də xaricdə yaşayan soydaşlarımız da Vətənin bütövləşəcəyi, düşmən işğalına son qoyulacağı günü həyəcanla gözləyirdilər. Bu istək, bu arzu respublikamızda olduğu kimi, qürbətdə yaşayan soydaşlarımızda birlik və həmrəylik duyğularını daha da möhkəmlətmişdi. Xaricdə yaşayan həmvətənlərimiz arasındakı jurnalistlərin gecə-gündüz telefon zəngləri susmurdu, onların hər qarış torpağımızın qəsbkardan təmizlənməsindən necə sevindikləri, qürur hissi keçirdiklərini yüz kilometrlərlə məsafədən duyur, hiss edirdik.

İndi onların nümayəndələri Qarabağın tacı olan Şuşada bu fərəhi bir daha yaşamaq, dövlətimizin başçısı cənab İlham Əliyevə bu möhtəşəm zəfəri müdrik siyasəti ilə gerçəkləşdirdiyi üçün minnətlıqlarını bildirmək, dünənə qədər gördükləri işin hesabatını vermək, qarşıda duran vəzifələri müəyyənləşdirmək üçün Vətənə gələrək müstəqillik tariximizin ilk qələbə Qurultayını Qarabağın tacı sayılan Şuşada keçirirlər.

Onu da qeyd edək ki, Vətən müharibəsinin getdiyi günlərdə diasporumuz Prezident İlham Əliyevin beynəlxalq ictimaiyyətin Azərbaycan həqiqətləri barədə məlumatlandırılması ilə bağlı tövsiyəsini də diqqətdə saxladı, dünyanın hər yerində geniş təbliğat-izahat işi apardı.

Qarabağ münaqişəsi haqqında həqiqətlər həm mediada, həm də canlı görüş və tədbirlərdə dəqiq, məntiqli, faktlara söykənən cavablarla beynəlxalq aləmə çatdırıldı. Bununla da düşmənin saxta xəbərlərinin (fake news), necə deyərlər, ayaq açıb yeriməsinə imkan verilmədi. İşğalçı Ermənistanın, onun bədnam diasporunun və havadarlarının bütün avantüra, qarayaxma kampaniyalarının qarşısı qətiyyətlə alındı. Xalqımızın beynəlxalq hüququn norma və prinsipləri, BMT Təhlükəsizlik Şurasının məlum qətnamələri əsasında haqq savaşı apardığı bütün dünyaya bildirildi. Şübhəsiz ki, bu məsələdə dövlətimizin başçısının səmərəli fəaliyyəti xüsusi rol oynadı və diasporumuz üçün mayak , örnək oldu.

Sonda diqqətə çatdırmaq istərdik ki, diasporumuzun Qarabağın azad olunmasından sonra növbəti qurultayı Şuşada keçirməsi ondan xəbər verir ki, ümummilli lider Heydər Əliyevin tövsiyyə etdiyi kimi, harada yaşayıb-işləməsindən asılı olmayaraq, hər bir soydaşımız milli dövlətinin ətrafında sıx birləşməyi, həmrəylik nümayiş etdirməyi fəaliyyətində ən önəmli prinsip sayır. Qürbətdə yaşayan soydaşlarımız daim Azərbaycanın yanında olmaqdan, doğma Qarabağla nəfəs almaqdan, ürəyinin bu əzəli-əbədi yurdumuzla birgə döyünməsindən qürur hissi keçirirlər.

Böyük tarixi əhəmiyyət və rəmzi məna daşıyan Şuşa Qurultayı Prezident İlham Əliyevin məqsədyönlü fəaliyyəti, uzaqgörən siyasəti sayəsində gerçəkləşir. Bu tədbir həm də dünya azərbaycanlılarını daha da sıx birləşdirmək, onları torpaqlarımızın bundan sonra da göz bəbəyi kimi qorunmasına daha fəal səfərbər etmək, erməni vandalizminin cinayətlərini dünyaya çatdırmaq məqsədi daşıyır. Şuşa qurultayı isə xaricdə yaşayan soydaşlarımızı qələbə zirvəsinə qovuşduracaq.

***Mədət MƏMMƏDOV,***
***Azərbaycan Jurnalistlərinin Həmrəyliyi Komitəsi İctimai Birliyinin sədri***

Xalq qəzeti .- 2022.- 22 aprel.- S.3.